AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# Kənd Təsərrüfatı və Ərzaq Məhsulları üzrə Dünya Bazarı Konyukturasına Dair Qısa İcmal

Fevral 2019

# M ü n d ə r i c a t


| BÖLMƏLƏR | SƏHİFƏ |
|---|---|
| **FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı** | *2* |
| **Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal** | *3-5* |
| **Arpanın dünya bazarı qiymətinə dair qısa icmal** | *6* |
| **Düyünün dünya bazarı qiymətinə dair qısa icmal** | *7* |
| **Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal** | *8* |
| **Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal** | *9-10* |
| **Yaşıl çayın dünya bazarı qiymətinə dair qısa icmal** | *11* |
| **Günəbaxan yağının dünya bazarı qiymətinə dair qısa icmal** | *12* |
| **Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal** | *13* |
| **Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal** | *14* |
| **Soyanın dünya bazarı qiymətinə dair qısa icmal** | *15* |
| **Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal** | *16* |
| **Qoyun ətinin dünya bazarı qiymətinə dair qısa icmal** | *17* |
| **Donuz ətinin dünya bazarı qiymətinə dair qısa icmal** | *18* |
| **Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal** | *19* |
| **Qaba yunun dünya bazarı qiymətinə dair qısa icmal** | *20* |
| **Südün dünya bazarı qiymətinə dair qısa icmal** | *21-22* |
| **Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal** | *23* |

# FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı

***(FAO-nun 7 mart 2019-cu il tarixli açıqlaması)***

***FAO-nun Qlobal Ərzaq Qiyməti İndeksi fevral ayında artmışdır.***

- **Qlobal Ərzaq Qiyməti İndeksi** 2019-cu ilin fevral ayında orta hesabla 167.5 bənd təşkil edib, yanvar ayı ilə müqayisədə 2.7 bənd (1.7%) **çox**, ötən ilin fevral ayı ilə müqayisədə isə 4 bənd (2.3%) **azdır**.
- **Taxıl Qiyməti İndeksi** fevral ayında orta hesabla 169 bənd təşkil edib, yanvar ayı ilə müqayisədə 0.3 bənd (0.2%), ötən ilin fevral ayı ilə müqayisədə isə 8 bənd (4.7%) **çoxdur**.
- **Bitki Yağlarının Qiymət İndeksi** fevral ayında orta hesabla 133.5 bənd təşkil edib, yanvar ayı ilə müqayisədə 2.3 bənd (1.8%) **artaraq** 2018-ci ilin oktyabr ayından sonra ən yüksək səviyyəyə çatıb.
- **Süd Məhsullarının Qiymət İndeksi** fevral ayında orta hesabla 192.4 bənd təşkil edib, yanvar ayı ilə müqayisədə 10.3 bənd (5.6%) **çoxdur**, hazırda ötən ilin fevral ayı ilə müqayisədə isə 1.3 bənd (0.7%) **azdır.**
- **Ət Məhsullarının Qiymət İndeksi** fevral ayında orta hesabla 163.6 bənd təşkil edib, yanvar ayı ilə müqayisədə 1.2 bənd (0.7%) **çox**, lakin ötən ilin fevral ayı ilə müqayisədə 6.7 bənd (4.0%) **azdır.**
- **Şəkər Məhsullarının Qiymət İndeksi** fevral ayında orta hesabla 184 bənd təşkil edib, yanvar ayı ilə müqayisədə 2.2 bənd (1.2%) **çox,** ötən ilin fevral ayı ilə müqayisədə 8.3 bənd (4.3%) **azdır.**







**Mənbə:** http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/

# Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal

*(ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin 8 mart 2019-cu il tarixli hesabatı əsasında hazırlanıb)*

- 2018/19-cu məhsul ili üzrə qlobal buğda istehsalı həcminin 733 milyon ton olacağı proqnozlaşdırılır ki, bu da 2017/18-ci məhsul ilinin göstəricisindən 3.9% aşağıdır.

**Dünya üzrə buğda bazarının tələb-təklif balansı, milyon ton**

| | | 2016/2017 | 2017/2018 | 2018/2019 |
|---|---|---|---|---|
| **TƏKLİF** | İlin əvvəlinə qalıq | 244 | 261 | 280 |
| | İstehsal | 756 | 763 | 733 |
| | Cəmi təklif | 1001 | 1024 | 1013 |
| **TİCARƏT** | İdxal / İxrac | 183 | 181 | 179 |
| **TƏLƏB** | Ərzaq və toxum | 592 | 597 | 600 |
| | Yem | 148 | 148 | 142 |
| | Cəmi istifadə | 740 | 744 | 742 |
| **İLİN SONUNA QALIQ** | | 261 | 280 | 271 |
| **DÜNYA ÜZRƏ EHTİYATLARIN İSTEHLAKA NİSBƏTİ, %** | | 35.3 | 37.6 | 36.5 |

**Mənbə:** www.uswheat.org

- Qlobal miqyasda məcmu təklifin həcm göstəricisinin 2016/17-ci məhsul ili ilə müqayisədə 11 milyon ton azalaraq 1013 milyon ton olacağı təxmin edilir.

- Dünya buğda ticarətinin 179 milyon ton olacağı proqnozlaşdırılır ki, bu göstərici son 5 ilin orta göstəricisi ilə müqayisədə 3% çoxdur.

- Dünyada buğda üzrə istehlakın 2018/19-cu məhsul ili üzrə 742 milyon ton olacağı proqnozlaşdırılır ki, bu göstərici ötən il ilə müqayisədə az, lakin son 5 ilin orta göstəricisi ilə müqayisədə 3.0% çoxdur.

- Proqnozlar reallaşacağı halda, qlobal buğda ehtiyatlarının həcminin 2017/18-ci məhsul ili ilə müqayisədə 3.2% azalaraq 271 milyon ton olacağı gözlənilir. Buna uyğun olaraq, dünya üzrə ehtiyatların istehlaka nisbəti göstəricisi də 36.5% səviyyəsində olacaq.

- Çində buğda ehtiyatlarının həcminin 2017/18-ci məhsul ili ilə müqayisədə 6.9% artaraq 140 milyon tona çatması gözlənilir.

🞧 Ötən mövsümə nəzərən cari mövsümdə əsas buğda ixracatçısı olan ölkələrdə ilin əvvəlinə olan qalıqların həcminin 72 milyon tonda sabit qalacağı, istehsal həcminin isə 27 milyon ton az olacağı gözlənilir. Bununla da, əsas ixracat ölkələri üzrə ümumi təklif səviyyəsi 27 milyon ton az olacaq.

🞧 Qara dəniz regionu ölkələri qrupu üzrə istehsal həcminin 12.0% azalaraq 125 milyon ton olması, ixracın isə 8.8% azalaraq 63.0 milyon ton olması proqnozlaşdırılır.







Bu qrupda əsas istehsalçılar Rusiya, Ukrayna və Qazaxıstandır.

**Mənbə:** *www.uswheat.org*

- **2016-2018-ci illər ərzində buğdanın dünya bazarı qiymətində artım müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2019-cu ilin fevral ayında buğdanın 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 4.4% artaraq 219.0 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**




**Mənbə:** https://www.imf.org/en/Research/commodity-prices




**Mənbə:** http://www.indexmundi.com/commodities/?commodity=wheat

## Arpanın dünya bazarı qiymətinə dair qısa icmal

- **Arpanın dünya bazarı qiymətində 2016-2018-ci illərdə artım trendi müşahidə olunmuşdur. Aylıq trenddə isə 2018-ci ilin avqust ayından arpanın dünya bazarı qiymətində azalma, 2018-ci ilin sentyabr ayından etibarən isə qiymətdə stabilləşmə meyli qeydə alınmışdır.**




**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*




**Mənbə:** *https://www.indexmundi.com/commodities/?commodity=barley*

## Düyünün dünya bazarı qiymətinə dair qısa icmal

- **Düyünün dünya bazarı qiymətində 2016-2018-ci illərdə artım trendi müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2019-cu ilin fevral ayında düyünün 1 tonun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 0.5 % azalaraq 408.0 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**




**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*




**Mənbə:** *https://www.indexmundi.com/commodities/?commodity=rice*

## Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində qarğıdalının dünya bazarı qiymətində əsasən artım müşahidə olunmuşdur. Aylıq trendə əsasən 2018-ci ilin oktyabr ayından etibarən qarğıdalının dünya bazarı qiymətində artım qeydə alınmışdır.**




**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*




**Mənbə:** *https://www.indexmundi.com/commodities/?commodity=corn*

## Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal

**Dünya üzrə pambıq balansına əsasən 2019-cu ilin fevral ayı ərzində pambığın istehsalında, təklifində və ehtiyatlarında azalma müşahidə olunmuşdur. Qlobal ehtiyatlardakı azalmanın əsas səbəblərindən biri Çinin pambıq ehtiyatlarındakı azalmadır.**

**Cədvəl 1. Dünya üzrə pambıq balansı (*Çin də daxil olmaqla*)**

| Milyon ton | 2014/2015 | 2015/2016 | 2016/2017 | 2017/2018 | 2018/2019 Fevral |
|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 21.8 | 23.3 | 19.7 | 17.5 | 17.6 |
| **İstehsal** | 26.0 | 20.9 | 23.2 | 26.9 | 25.8 |
| **Təklif** | 47.7 | 44.2 | 42.9 | 44.5 | 43.4 |
| **Fabrik istehlakı** | 24.4 | 24.7 | 25.3 | 26.7 | 26.9 |
| ***İlin sonuna qalıq*** | 23.3 | 19.7 | 17.5 | 17.7 | 16.4 |
| ***Qalıq/İstehlak nisbəti*** | 95.2% | 79.8% | 69.2% | 66.2% | 61.1% |

**Cədvəl 2. Çinin pambıq balansı**

| Milyon ton | 2016/17 | 2017/18 | 2018/19 Fevral |
|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 12.3 | 10.0 | 8.3 |
| **İstehsal** | 5.0 | 6.0 | 6.0 |
| **Təklif** | 18.4 | 17.2 | 15.9 |
| **Fabrik istehlakı** | 8.4 | 8.9 | 8.8 |
| ***İlin sonuna qalıq*** | 10.0 | 8.3 | 7.0 |
| ***Qalıq/İstehlak nisbəti*** | 119.1% | 92.4% | 79.6% |

**Cədvəl 3. Çin daxil olmadan dünya pambıq balansı**

| Milyon ton | 2016/17 | 2017/18 | 2018/19 Fevral |
|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 7.3 | 7.5 | 9.4 |
| **İstehsal** | 18.3 | 21.0 | 19.8 |
| **Təklif** | 25.6 | 28.5 | 29.2 |
| **Fabrik istehlakı** | 16.9 | 17.8 | 18.1 |
| ***İlin sonuna qalıq*** | 7.5 | 9.4 | 9.4 |
| ***Qalıq/İstehlak nisbəti*** | 41.7% | 49.4% | 47.6% |

**Mənbə**: http://www.cottoninc.com/corporate/Market-Data/MonthlyEconomicLetter/

- 2016-2018-ci illər ərzində pambığın dünya bazarı qiymətində artım müşahidə olunmuşdur. Aylıq trendə əsasən 2018-ci ilin iyun ayından sonra pambığın dünya bazarı qiyməti azalmış və azalma trendi 2019-cu ilin fevral ayında da davam etmişdir.




**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*




**Mənbə:** *http://www.indexmundi.com/commodities/?commodity=cotton*

## Günəbaxan yağının dünya bazarı qiymətinə dair qısa icmal

- **Dünya bazarında günəbaxan yağının qiymətində 2016-2018-ci illər ərzində ciddi azalma trendi müşahidə olunmuşdur. Aylar üzrə isə azalma trendi 2018-ci ilin iyul ayından başlamış, 2019-cu ilin fevral ayında günəbaxan yağının 1 tonun dünya bazarı qiyməti 700 ABŞ dolları olmuşdur.**




**Mənbə:** https://www.imf.org/en/Research/commodity-prices




**Mənbə:** https://www.indexmundi.com/commodities/?commodity=sunflower-oil

## Yaşıl çayın dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində yaşıl çayın dünya bazarı qiymətində qeyri-müəyyənliklər müşahidə olunmuşdur. 2018-ci ilin fevral ayından başlayaraq dünya bazarında yaşıl çayın qiymətində əsasən azalma trendi qeydə alınmışdır və 2019-cu ilin fevral ayında yaşıl çayın 1 tonunun dünya bazarı qiyməti 2.16 ABŞ dolları olmuşdur.**




**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*




**Mənbə:** *https://www.indexmundi.com/commodities/?commodity=tea*

## Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində zeytun yağının dünya bazarı qiymətində qeyri-müəyyənliklər müşahidə olunmuşdur. 2018-ci ilin I rübündən başlayan zeytun yağının dünya bazarı qiymətindəki kəskin azalma 2019-cu ilin fevral ayında da davam etmişdir.**




**Mənbə*:*** [https://www.imf.org/en/Research/commodity-prices](https://www.imf.org/en/Research/commodity-prices)

## Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində şəkərin dünya bazarı qiymətində azalma trendi müşahidə olunmuşdur. 2019-cu ilin fevral ayında şəkərin 1 kiloqramının qiyməti 0.29 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**




**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*




**Mənbə:** *https://www.indexmundi.com/commodities/?commodity=sugar*

## Soyanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2016-2018-ci illər ərzində soyanın dünya bazarı qiymətində kəskin azalma müşahidə olunmuşdur. 2018-ci ilin oktyabr ayından soyanın qiymətində artım müşahidə olunsa da 2019-cu ilin fevral ayında azalma qeydə alınmışdır.**




**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*




**Mənbə:** *http://www.indexmundi.com/commodities/?commodity=soybeans*

## Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində mal ətinin dünya bazarı qiymətində qeyri-müəyyənliklər müşahidə olunmuşdur. 2018-ci ilin I rübündən başlayan mal ətinin qiymətindəki azalma trendi 2019-cu ilin ilk iki ayı ərzində artım ilə əvəzlənmişdir.**




**Mənbə*:*** *https://www.imf.org/en/Research/commodity-prices*




**Mənbə**: *https://www.indexmundi.com/commodities/?commodity=beef&months=120*

## Qoyun ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində qoyun ətinin dünya bazarı qiymətində dayanıqlı artım trendi müşahidə olunmuşdur. 2018-ci ilin III rübündən başlayan azalma 2019-cu ilin fevral ayında da davam etmişdir.**




**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

## Donuz ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər əzrində donuz ətinin dünya bazarı qiymətində qeyri-müəyyənliklər müşahidə olunmuşdur. 2018-ci ilin II rübündən başlayan donuz ətinin qiymətindəki azalma trendi 2019-cu ilin ilk iki ayı ərzində də davam etmişdir.**




**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

## Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **Dünya bazarında 2016-2018-ci illər ərzində quş ətinin qiymətində artım müşahidə olunmuşdur. 2018-ci ilin II rübündən başlayan azalma 2019-cu ilin fevral ayında da davam etmişdir.**




**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*




**Mənbə:** *https://www.indexmundi.com/commodities/?commodity=chicken*

## Qaba yunun dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində qaba yunun dünya bazarı qiymətində artım müşahidə olunmuşdur. 2019-cu ilin ilk iki ayı ərzində artım trendi davam etmişdir.**




**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

## Südün dünya bazarı qiymətinə dair qısa icmal

- **2015 və 2016-cı illərdə ABŞ, Avropa İttifaqı və Yeni Zelandiyada süd xammalının bazar qiymətlərində 2014-cü ilə nəzərən kəskin azalma trendi müşahidə olunmuşdur. 2017-ci ildə süd xammalının qiymətində yenidən artım başlasa da, 2018 və 2019-cu illərdəki qiymət 2014-cü il ilə müqayisədə kəskin şəkildə aşağıdır. Aylıq trenddə isə 2019-cu ilin fevral ayında süd xammalının dünya bazarında sahədən satış qiymətində ABŞ-da və Yeni Zelandiyada artım trendi müşahidə olunsa da Avropa İttifaqında azalma qeydə alınmışdır.**




**Mənbə:**https://www.clal.it/en/index.php




**Mənbə:**https://www.clal.it/en/index.php

- **Süd xammalının dünya bazarı qiymətindəki azalma trendi quru südün dünya bazarı qiymətində də özünü göstərmişdir. Belə ki, 2015 və 2016-cı illərdəki azalma trendi 2017-ci ildən etibarən artım ilə əvəz olunsa da, 2014-cü ildəki qiymət səviyyəsinə çatmamışdır Aylıq trenddə isə 2019-cu ilin fevral ayında ABŞ və Avropa İttifaqında quru südün 1 tonunun dünya bazarı qiymətində artım qeydə alınmışdır.**




**Mənbə:** https://www.clal.it/en/index.php




**Mənbə:** https://www.clal.it/en/index.php

## Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illərdə dünya bazarında kalsium fosfatın və potassium xloridin qiymətində azalma trendi. diamonium fosfatın. üçqat super fosfat və karbamidin qiymətində isə əsasən artım trendi müşahidə olunmuşdur. 2019-cu ilin fevral ayında əvvəlki ayla müqayisədə diamonium fosfatın, üçqat super fosfat və karbamidin qiymətində azalma müşahidə olunmuş, kalsium fosfatın və potassium xloridin qiyməti isə dəyişməmişdir.**




**Mənbə:** *http://www.indexmundi.com/commodities/?commodity=potassium-chloride*
*http://www.indexmundi.com/commodities/?commodity=dap-fertilizer*
*http://www.indexmundi.com/commodities/?commodity=rock-phosphate*
*http://www.indexmundi.com/commodities/?commodity=triple-superphosphate*
*http://www.indexmundi.com/commodities/?commodity=urea*